**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NAXÇIVAN BÖLMƏSİ**

*Əlyazması hüququnda*

**GÜLŞƏN MƏMMƏD QIZI MUSTAFAYEVA**

# ERMƏNİSTANIN AZƏRBAYCANA QARŞI İŞĞALÇILIQ MÜHARİBƏSİNDƏ ƏSİR VƏ GİROV GÖTÜRÜLMÜŞ, İTKİN DÜŞMÜŞ VƏTƏNDAŞLARIN AXTARILMASI VƏ QAYTARILMASI UĞRUNDA MÜBARİZƏ (XX ƏSRIN 80-CI ILLƏRININ SONU-XXI ƏSRIN ƏVVƏLLƏRI)

**İxtisas: 5502.01 – Ümumi tarix**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın**

**AVTOREFERATI**

**NAXÇIVAN – 2013**

Dissertasiya Gəncə Dövlət Universitetinin "Ümumi tarix" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbərlər:** **İsmayıl Muxtar oğlu Hacıyev**
AMEA-nın həqiqi üzvü

**Oqtay Balaqədəş oğlu Sultanov**
Tarix üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Vəli Hüseyn oğlu Əliyev**
AMEA-nın müxbir üzvü, tarix üzrə elmlər doktoru, professor

**Aydın Hacıbala oğlu Musayev**
Tarix üzrə fəlsəfə doktoru

**Aparıcı təşkilat:** A.A.Bakıxanov adına Tarix İnstitutunun "Ümumi tarix" şöbəsi

Müdafiə "_22__" 06___ 2013-cü il saat "___"-da Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin nəzdində fəaliyyət göstərən D.01.211 Dissertasiya Şurasının əsasında yaradılmış B/D. 01.211 Birdəfəlik Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76, AMEA Naxçıvan Bölməsi, əsas bina, akt zalı.

Dissertasiya ilə AMEA Naxçıvan Bölməsinin Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____" _______ 2013-cü ildə göndərilmişdir.

**B/D.01.211. Dissertasiya**
**Şurasının elmi katibi:** **E.A.Şıxəliyev**
**tarix üzrə fəlsəfə doktoru, dosent**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** XX əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəlində SSRİ-nin tənəzzülü və süqutu şəraitində ermənilər yenidən Azərbaycan torpaqlarına qarşı əsassız ərazi iddialarına, xalqımıza qarşı soyqırımı və deportasiya siyasətinə başladılar. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində keçmiş sovet rəhbərliyi ermənilərə açıq şəkildə dəstək verdi. Milli-etnik münaqişələrin həllinə Qərb dövlətləri də etinasız yanaşdılar. SSRİ dağıldıqdan sonra Cənubi Qafqaza əvvəlki nəzarətini qoruyub saxlamağa can atan Rusiya nəinki problemin həllinə cəhd göstərmədi, əksinə, münaqişə nəticəsində yaranmış status-kvonun saxlanması üçün əlindən gələni etdi və bunu ölkəmizin müstəqilliyi üçün təzyiq vasitəsinə çevirdi.

1991-ci ilin dekabrında SSRİ-nin faktiki iflasından sonra münaqişə növbəti mərhələyə qədəm qoydu. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni yaraqlılarının Rusiyanın bölgədəki 366-cı motoatıcı alayı ilə birgə həyata keçirdikləri Xocalı soyqırımında 613 nəfər öldürüldü, 657 nəfər müxtəlif yaşlı dinc sakin aldığı güllə yarasından əlil oldu, 1275 nəfər dinc sakin girov götürüldü, onların 150-nin taleyi indi də məlum deyil.

1992-ci il mayın 8-də Şuşa şəhəri zəbt edilməklə Dağlıq Qarabağın tam ilhaqı, mayın 18-də Laçın rayonunun zəbt edilməsi ilə isə onun coğrafi baxımdan Ermənistana birləşdirilməsi siyasəti reallaşdırıldı.

1993-cü ildə görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərliyə qayıtması ilə müstəqilliyin möhkəmləndirilməsi, nizami ordu quruculuğu və münaqişənin nizamlanması istiqamətində yeni mərhələ başlandı. 1994-cü il mayın 12-də ermənilərlə atəşkəs haqqında saziş bağlandı.

1988-1994-cü illəri əhatə edən fəal hərbi əməliyyatlar zamanı 4852 Azərbaycan vətəndaşı əsir və girov götürüldü, itkin düşdü.[1] Ölkə rəhbərliyinin ciddi səyləri, beynəlxalq humanitar təşkilatlarla əməkdaşlıq sayəsində 1401 nəfər erməni əsirliyindən azad edilsə də, əsir və girovluqda saxlanması barədə ciddi dəlillərə baxmayaraq, 783 vətəndaşın əsirlikdə olması faktı düşmən tərəfindən hələ də inkar edilir. 18 min Azərbaycan vətəndaşı həlak oldu, 5000-dən artıq insan əsir və girov götürüldü, itkin düşdü, 50 min nəfər yaralandı və işgəncələrə məruz qaldı.[2] Əsir və girov

---

[1]Гасанов Т. Тяжелые социально-экономические последствия оккупации Арменией территории Азербайджана. Баку: Чашыоглу, 2004, 122 с.

[2]Əsir və İtkin Düşmüş, Girov Götürülmüş Vətəndaşlarla Əlaqədar Dövlət Komissiyasının İşçi Qrupunun arxivi. Pr. №1, 18.12.2004

götürülmüş, itkin düşmüş vətəndaşlarımızın axtarılması və geri qaytarılması istiqamətində işlər davam etdirilir. Aparılan tədqiqat işinin bu problemin həllinə müsbət təsir göstərəcəyini düşünürük. Mövzunun aktuallığı da bu səbəblərdən irəli gəlir.

**Tədqiqatın xronoloji çərçivəsi.** Dissertasiyada 1988-1994-cü illərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin fəal hərbi əməliyyatlar mərhələsində, habelə 1994-cü ilin may ayından başlayan atəşkəs dövründə ermənilər tərəfindən əsir və girov götürülmüş, cəbhə bölgəsində itkin düşmüş soydaşlarımızın taleyi ilə bağlı məsələlərə aydınlıq gətirilmişdir.

**Mövzunun araşdırılma səviyyəsi.** Ötən dövrdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, onun gedişi və nəticələri barədə, ayrı-ayrı əsir və girovlara qarşı erməni vandalizmini ifşa edən məqalə və publisistik yazılar dərc olunsa da, KİV-də vaxtaşırı mövzu barədə rəsmi məlumatlar və statistika dərc olunsa da, bu sahədə kompleks elmi-tədqiqat əsəri yazılmamış, düşmən tərəfindən əsir və girov götürülmüş vətəndaşların axtarılması, vətənə qaytarılması ilə bağlı elmi araşdırma aparılmamışdır.

Mövzunun öyrənilməsi baxımından erməni əsirliyində həyatı təhlükədə olan 144 insanın fotoşəkli, doğulduğu yer, ermənilər tərəfindən əsir götürüldüyü münaqişə bölgəsi haqqında məlumat verən "Onlar təhlükədədir. SOS" adlı ingilis və rus dillərində toplu xüsusi əhəmiyyətə malikdir.[3]

Erməni vandalizminin və işğalçı siyasətinin ifşası bir sıra toplularda[4] da öz əksini tapmışdır. AMEA İnsan Hüquqları İnstitutu tərəfindən hazırlanmış müxtəsər xronoloji ensiklopediyada[5] deportasiya, erməni hərbi təcavüzü, ermənilərin törətdiyi terror aktları haqqında faktlar əks olunmuşdur.

İ.Hacıyevin ermənilərin ölkəmizə qarşı ərazi iddialarının və qanlı cinayətlərinin tarixinə həsr olunan monoqrafiyası XX əsrdə baş vermiş qanlı faciələrin öyrənilməsi baxımından əhəmiyyətlidir. Onun "Heydər

---

[3]Они в опасности. На русском и анг.яз. Баку: Азербайджан, 1994, 80 с.

[4]Erməni cinayətləri. I c. Elmi red. M.Cəfəri. Bakı: Vətən, 2004, 161 s.; Erməni terroru. Red. T.Sadıqov və b. Bakı: İndiqo, 2007, 166 s.; Xocalı soyqırımı. Bakı: 2009, 54 s.; Xocalı soyqırımı (sənədlərdə, faktlarda və xarici mətbuatda). Bakı: Əbilov, Zeynalov və oğulları, 2006, 582 s.; Xocalı soyqırımının qurbanları. Bakı: Şərq-Qərb, 1992, 192 s.

[5]Erməni terror və quldur birləşmələrinin bəşəriyyətə qarşı cinayətləri (XX-XXI əsrlər). Müxtəsər xronoloji ensiklopediya. Bakı: Elm, 2003, 367 s.

Əliyev və milli-tarixi yaddaşın bərpası" adlı əsərində də mühüm faktlar vardır.[6]

S.Müslümqızının Azərbaycan, ingilis və rus dillərində eyni məzmunlu mətnlərdən ibarət kitab-albomunda, kitablarında Xocalı soyqırımının qurbanları haqqında konkret məlumat verilir.[7]

Problemin bəzi cəhətlərinin öyrənilməsində V.Arzumanlı və T.Mustafanın[8], Ə.Boranın[9], F.Həsənqızının[10], B.Məhərrəmovun[11], O.Sultanovun[12], Z.Sultanovun[13], C.Süleymanov, A.Şərifov və N.Abdullayevin[14], N.Zeynalovun[15] hazırladıqları kitablar diqqəti cəlb edir. Bu baxımdan T.Çaladze tərəfindən hazırlanmış kitablar[16] xüsusi rol oynayır.

Əsirlikdə olan Azərbaycan vətəndaşlarına verilən işgəncələrə, onların "müharibə biznesi"nin əmtəəsinə, düşmənin qanunsuz orqan ticarəti ilə məşğul olan cinayətkar qruplaşmalarının əlində alver vasitəsinə çevrilməsinə, uşaqların terrorçu erməni təşkilatları tərəfindən kamikadze hazırlığı üçün istifadə edilməsinə, əsir və girovlara işgəncə verən

---

[6]Hacıyev İ. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri. Naxçıvan: "Əcəmi" NPB, 2012, 192 s.; Yenə onun, Heydər Əliyev və milli-tarixi yaddaşın bərpası. Bakı: Elm, 2003, 164 s.

[7]Müslümqızı S. Qar üstünə qan yağırdı. Bakı: Azərnəşr, 1997, 177 s.; Yenə onun, Onlar heç vaxt böyüməyəcəklər. Bakı: Çaşıoğlu, 2005, 95 s.; Yenə onun, Ölümdən o yandakı Xocalı. Bakı: Şəms, 2006, 222 s.

[8]Arzumanlı V., Mustafa T. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı: Qartal, 1998, 279 s.

[9]Ə.Boran. Xocalı soyqırımı: səbəbləri, həyata keçirilmə üsulları və nəticələri. Bakı: Azərnəşr, 2008, 223 s.

[10]Həsənqızı F. Xocalıda uşaqların fəryadı (hekayələr). Bakı: Şur, 2004,151 s.

[11]Məhərrəmov B. Erməni əsirliyindən dönənlər. Bakı: Hərbi nəşriyyat, 2009,135 s.

[12]Sultanov O. Xocalı soyqırımı əsrin faciəsidir. Bakı: ADPU-nun nəşri, 1998, 88 s.; Yenə onun, 80-ci illərin sonu-90-cı illərin əvvəllərində Azərbaycanda siyasi mübarizə. Bakı: Maarif, 1995, 232 s.

[13]Sultanov Z. Qarabağ müharibələri: faktlar...hadisələr...düşüncələr... Bakı: Maarif, 2003, 172 s.

[14]Süleymanov C., Şərifov A., Abdullayev N. Xocalı soyqırımı. Bakı: 2006, 581 s.

[15]Zeynalov N. İki ay erməni əsirliyində. Bakı: Azərnəşr, 2000, 59 s.

[16]Чаладзе Т. Карабах: Война в лицах. Фотохроника. Октябр 1992-апрель 1993. Ч. 1-й. Баку: Азернешр, 1993, 88 с.; Yenə onun. Карабах: Война в лицах. Фронтовой албом. Август 1993-ноябрь 1993. Ч. 2-й. Баку: Азернешр, 1994, 182 с.; Yenə onun, Карабахский геноцид: Обреченный Ходжалы. Баку: Азернешр, 2009, 845 с.; Yenə onun, Сострадание. Баку: Азербайджан, 1995, 232 с.

cinayətkarların ifşasına, əsir və girovlarla əlaqədar Azərbaycanın beynəlxalq humanitar təşkilatlarla əməkdaşlığına və s. həsr olunmuş məqalələr[17] problemin tədqiqi prosesində diqqət mərkəzində olmuşdur. Bu məqalələrdə əsir, girov və itkin düşənlərin taleyinə bəzi beynəlxalq təşkilatların biganəliyi tənqid olunur.

Əsirlikdə olan azərbaycanlıların məruz qaldıqları işgəncələrin şahidi olmuş əcnəbi müəlliflərin erməni vandalizminin iç üzünü açan əsərləri də problemin araşdırılması üçün mühüm rol oynamışdır. Erməni vəhşiliklərini gözləri ilə görmüş britaniyalı T.Qolst, R.Patriks, belçikalı Ə.Sel, fransız J.İ.Yunetin, habelə bəzi erməni jurnalistlərinin şahidi olduğu vandalizm faktları bu cəhətdən çox əhəmiyyətlidir.[18]

**Tədqiqatın nəzəri-metodoloji əsası.** Qarşıya qoyulan elmi problemin həlli üçün dissertasiyada əldə edilən zəngin faktoloji materialın işlənilməsi və elmi dövriyyəyə cəlbi üçün tarix elmində ümumi qəbul olunmuş induksiya və deduksiya, təhlil və sintez, şərh, müqayisə, sinxron əlaqə tədqiqatın əsas metodlarını təşkil edir.

**Dissertasiyanın mənbəşünaslıq bazası.** Tədqiqat zamanı Azərbaycan Respublikasının Konstitusiyası[19], Azərbaycan Respublikası Prezidentinin əsir və girov götürülmüş, itkin düşmüş vətəndaşların işi ilə əlaqədar

Fərman və Sərəncamları, Azərbaycan Respublikası Milli Məclisinin müvafiq qərar və qətnamələri[20], Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları rəsmi mənbələr kimi əldə rəhbər tutulmuşdur.

---

[17]Həsənoğlu A. Əfsanəyə dönən oğullar. "Üç nöqtə" qəz., 2004, 29 yanvar; Yenə onun, Cəzalarına çatmalıdırlar. "Olaylar" qəz., 2004, 28 sentyabr; Yenə onun, İşğal olunmuş torpaqlarda məzarlar sökülür. "Ekspress" qəz., 2004, 10 aprel; Ağayev H. Ölü alveri. "Ekspress" qəz., 2004, 9 noyabr; Qazıyev İ. Ermənilərin törətdikləri soyqırımların bəzi məqamları. "Xalq qəzeti", 2007, 31 mart; Məmmədov S. Erməni əsirliyində olmuş soydaşlarımızın vəziyyəti dözülməzdir. "Ayna" qəz., 2004, 6 may; Исрафилоглу Р. Рабочая группа по военопленным, заложникам и без вести пропавшим защищает Альберта Восканяна. Газ. "Зеркало", 2003, 13 мая; Миркадиров Р. Не надо оказывать себе "медвежю услугу", когда речь идет о цифрах, связанных с Карабахским конфликтом. Газ. "Эхо", 2004, 2 декабря.

[18]Bax: "Azad Qarabağ" qəzeti, 2006, 2 mart; Газета "Вышка", 1992, 7 марта; Газета "Московский комсомолец", 1994, 29 ноября; "525-ci" qəzeti, 2004, 13 yanvar.

[19]Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Hüquq ədəbiyyatı, 2009, 94 s.

[20]Azərbaycan Respublikasının Qaçqınlar və Məcburi köçkünlər haqqında normativ hüquqi sənədlər toplusu. Bakı: Borçalı, 2004, 527 s.

Azərbaycan Respublikası Milli Məclisinin[21], Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının arxiv materiallarından, videomateriallarından, əsir və girovlara qarşı törədilmiş cinayət işlərinə aid sənədlərdən[22] tədqiqatda geniş istifadə olunmuşdur.

1991-1993-cü illərdə ümummilli lider Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinin Sədri işlədiyi dövrdə ermənilər tərəfindən əsir və girov götürülmüş, itkin düşmüş şəxslərin taleyinə aydınlıq gətirilməsi, xilas edilərək ailələrinə qaytarılması yönündə fəaliyyətini əks etdirən materiallar da ilk dəfə elmi dövriyyəyə daxil edilmişdir. Bu baxımdan "Qayıdış. (1990-1993)" toplusu[23] mühüm mənbədir.

Keçmiş hərbiçi A.Muradovun, jurnalistlər N.İsmaylovanın, G.Əliyevanın, M.Hüseynovun şəxsi arxivinin, əsir, girov və itkin düşmüşlərin problemləri, vətəndaş cəmiyyəti və insan hüquqları sahəsində fəaliyyət göstərən bir sıra QHT-lərin, KİV-in materiallarından tədqiqat zamanı məqsədəuyğun şəkildə istifadə olunmuşdur. Əsirlikdən qayıtmış insanların filtrasiya prosesini əks etdirən kasetlərə baxılmış, işgəncələrə məruz qalmış şəxslərin ifadələri əsasında erməni vandalizminə dair faktlar əldə edilmiş, işgəncələrin xalqımıza qarşı soyqırımı siyasətinin davamı olduğu əsaslandırılmışdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın yazılmasında əsas məqsəd münaqişə dövründə ermənilər tərəfindən əsir və girov götürülmüş, itkin düşmüş soydaşlarımızın taleyinə aydınlıq gətirmək, əsir və girovların azad edilməsi prosesini elmi-siyasi cəhətdən təhlil etmək və münaqişənin bu sahədəki ağır nəticələrini dəyərləndirməkdir. Qarşıya qoyulan məqsəd aşağıdakı vəzifələrin elmi cəhətdən həllini zəruri etmişdir:

– müstəqil dövlət quruculuğunun ilkin mərhələsində əsir və girovların axtarışı və vətənə qaytarılması işinin pərakəndə və dövlətçilik maraqlarına zidd xarakterini açmaq, bu istiqamətdə təşkil olunmuş fəaliyyətin zəruriliyini əsaslandırmaq;

---

[21]Azərbaycan Respublikası Milli Məclisinin arxivi, fond 2941, iş №1

[22]Əsir və İtkin Düşmüş, Girov Götürülmüş Vətəndaşlarla Əlaqədar Dövlət Komissiyasının "Azərbaycan Respublikası ərazisində erməni təcavüzünün qurbanı olmuş qadınlar və uşaqlar haqqında" materialları. "Dirçəliş-XXI əsr" jurnalı, 2002, № 54, s. 76-82; Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupunun arxivi; http://www.human.gov.az saytı.

[23]Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. Bakı: Azərbaycan, 2008, 840 s.

– 1991-1993-cü illərdə Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevin şəxsi nüfuzu sayəsində onlarla soydaşımızı girovluqdan xilas edərək öz ailələrinə qaytarması prosesinin əhəmiyyətini vurğulamaq;

– əsir və girov götürülmüş insanlara qarşı işgəncələrin 1949-cu il Cenevrə Konvensiyasına və ona 1977-ci il tarixli Əlavə Protokollara, beynəlxalq hüquq normalarına, BMT-nin Ermənistanı təcavüzkarlığa son qoymağa çağıran 822, 853, 874, 884 nömrəli qətnamələrinə zidd mahiyyətini əsaslandırmaq;

– Ermənistanın əsirlikdə saxladığı Azərbaycan vətəndaşlarına qarşı vandalizmi dövlət səviyyəsində həyata keçirdiyini sübut etmək, indiyədək bəşəriyyətə məlum olmayan, ilk dəfə ermənilərin tətbiq etdiyi amansız və vəhşi işgəncə formalarını üzə çıxarmaq və dünya ictimaiyyətinə çatdırmaq;

– ermənilərin münaqişə qurbanlarına qarşı törətdikləri cinayətlərin tədqiqi istiqamətində həyata keçirilən istintaq proseslərinin dinamikasını araşdırmaq və gələcəkdə cinayətkarların beynəlxalq mühakimə kürsüsündə əyləşdirilməsi zəruriliyini əsaslandırmaq;

– əsir və girovların, itkin düşənlərin axtarılması üçün toplanan məlumatların nəzərdən keçirilməsi, müvafiq informasiya bankının yaradılması, onların ölkəmizə qaytarılması və sosial reabilitasiyası sahəsində fəaliyyət prinsiplərini və tarixini ümumiləşdirmək;

– əsir və girovlarla əlaqədar xarici dövlətlərlə, beynəlxalq humanitar təşkilatlarla əməkdaşlığın tarixinə dair təcrübəni təhlil etmək, müştərək qazanılmış nəticələri nəzərdən keçirmək, azərbaycanlı əsir və girovlara münasibətdə bəzi beynəlxalq qurumların biganə mövqeyinə qiymət vermək;

– erməni terrorizminin bəşəriyyət üçün təhlükəli xarakterini və tərəqqipərvər qüvvələrdən ibarət vahid antierməni cəbhəsinin yaradılmasının aktuallığını beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq və s.

**Tədqiqatın elmi yeniliyi və elmi-praktiki əhəmiyyəti.** Dissertasiya aşağıdakı yeniliklərin ilk dəfə elmi dövriyyəyə daxil edilməsinə imkan vermişdir:

– Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq erməni əsirliyində olan əsir və girovların, itkin düşənlərin acı taleyi, onların axtarılması, xilas edilməsi, əsirlikdə məruz qaldıqları işgəncələrin araşdırılması və s. ilə bağlı xeyli fakt toplanaraq qruplaşdırılmış və elmi dövriyyəyə cəlb olunmuşdur;

– 1991-1993-cü illərdə Azərbaycanın müxtəlif rayonlarından olan, yaxın qohumları əsir, girov və itkin düşmüş insanların, ailələrin müraciətləri əsasında həmin dövrdə Naxçıvan MR Ali Məclisinin Sədri vəzifəsində işləyən Heydər Əliyevin həmin soydaşlarımızın tapılaraq

düşmən tərəfindən alınması və ailələrinə qaytarılması istiqamətində müstəsna xidmətləri ilk dəfə dissertasiya səviyyəsində öyrənilmişdir;

– əsir və girov götürülmüş soydaşlarımızın ailələrinə qaytarılması, itkin düşmüş şəxslərin taleyinə aydınlıq gətirilməsi istiqamətində beynəlxalq təşkilatlarla əməkdaşlığın nəticələri araşdırılmışdır;

– Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində atəşkəsə qədərki müddətdə döyüş bölgəsində həyata keçirilən işğalçı hərbi əməliyyatların, dinc əhaliyə qarşı törədilən cinayətlərin tarixi bərpa edilmişdir;

– əsir və girovluğun ilk günündən məruz qaldıqları işgəncələrin xalqımıza qarşı soyqırımı siyasətinin davamı olduğu əsaslandırılmışdır;

–girov götürülmüş körpə və azyaşlı uşaqlardan erməni terrorçu təşkilatlar tərəfindən kamikadze hazırlığı məqsədi ilə istifadə olunması, əsirlərinin müxtəlif daxili orqanlarının qanunsuz transplantasiya və orqan ticarəti məqsədi ilə çıxarılmasına dair faktlar üzə çıxarılmışdır;

– təcrübə məqsədi ilə tibbdə istifadəsi qadağan olunan maddələrin əsir və girovların bədənlərinə yeridilməsi, ağıza torpaq doldurularaq başın kəsilməsi, qadın qarnını kəsərək ora pişik yeridilməsi, çəkiclə başa mıx vurmaqla qətl törədilməsi və s. indiyədək məlum olmayan işgəncə formalarının erməni xisləti ilə bilavasitə bağlılığı, antiinsani xarakteri ifşa edilmişdir;

– əsir və girov götürülən, itkin düşən vətəndaşların siyahısının 1988-2006-cı illərdə dəqiqləşdirmə təkamülü izlənmiş, axtarış tədbirlərinin nəticələri illər üzrə qruplaşdırılmışdır;

– əsir və girovların, itkin düşənlərin işi üzrə Dövlət Komissiyasının, yerli və beynəlxalq QHT-lərin fəaliyyət istiqamətləri öyrənilmişdir.

Ermənistanın Azərbaycana hərbi təcavüzünün davam etməsi, torpaqlarımızın hələ də işğal altında qalması, yüzlərlə soydaşımızın düşmənin əlində əsir və girov olması, itkin düşənlərin bir çoxunun taleyinin naməlum qalması dissertasiyanın praktiki əhəmiyyətini göstərir. İşdəki materiallar bu problemin həlli ilə məşğul olan hökumət və qeyri-hökumət təşkilatlarının əməli fəaliyyətinə istiqamət vermək baxımından əhəmiyyətlidir. Tədqiqatdan erməni vandalizminin ifşa olunması, Ermənistanın terroru dövlət səviyyəsində dəstəkləməsinin bütün dünya üçün təhlükəli olmasının təbliği istiqamətində də istifadə etmək olar.

Dissertasiyadan münaqişə ilə bağlı yeni tədqiqat əsərlərinin yazılmasında, erməni təcavüzkarlığının tədqiqi istiqamətində araşdırmaların aparılmasında, ali məktəblərdə tədris olunan türk və Qafqaz xalqlarının, həmçinin Azərbaycan tarixi ilə bağlı dərsliklərin hazırlanmasında, eləcə də

ixtisas kurslarının tədrisində istifadə etmək mümkündür.

**Tədqiqatın obyekti.** Tədqiqatın obyektini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, predmetini isə münaqişənin baş verdiyi illər ərzində bilavasitə müharibə zonasında ermənilər tərəfindən əsir və girov götürülmüş, itkin düşmüş, habelə əsirlikdən və girovluqdan azad edilmiş azərbaycanlıların taleyi ilə bağlı məsələlər təşkil edir.

**İşin aprobasiyası.** Dissertasiyanın mövzusu Gəncə Dövlət Universiteti Elmi Şurasının 28 fevral 2006-cı il tarixli iclasında (protokol № 6) təsdiq edilmiş, iş 2006-2012-ci illərdə GDU-nun "Ümumi tarix" kafedrasında yerinə yetirilmiş, həmin kafedranın 10 noyabr 2010-cu il tarixli iclasında müzakirə olunmuş və müdafiəyə tövsiyə olunmuşdur. İşin əsas məzmunu müəllifin nəşr olunmuş 13 elmi məqalə və tezisində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, üç fəsil və onları əhatə edən doqquz yarımfəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı, öyrənilmə səviyyəsi, məqsəd və vəzifələri, tədqiqatın elmi yeniliyi əsaslandırılmış, elmi-praktiki əhəmiyyəti şərh olunmuş, aprobasiyası diqqətə çəkilmişdir.

"Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində itkin düşmüş, ermənilər tərəfindən əsir və girov götürülmüş vətəndaşların axtarışı və xilası" adlanan I fəsil üç yarımfəslə bölünür. "Əsir, girov və itkinlərin işi üzrə fəaliyyətin təşkilatlandırılması" adlanan I yarımfəsildə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin başlanması səbəbləri, soydaşlarımızın Qərbi Azərbaycandan deportasiyası, ilk qurbanların verilməsi, əsir, girov və itkin düşənlərin taleyi, onların düşmən əsirliyindən xilas edilməsi ilə bağlı məsələlərdə ilk illərdə pərakəndəlik və özbaşınalığın mövcud olmasından danışılır.

Lakin həmin dövrdə Naxçıvan MR Ali Məclisinin Sədri işləyən görkəmli dövlət xadimi Heydər Əliyevin gördüyü tədbirlər nəticəsində Azərbaycanın müxtəlif bölgələrindən olan əsir və girov düşmüş şəxslərin alınıb ailələrinə qaytarılırdı. Bilavasitə onun səyləri nəticəsində Goranboy, Tovuz, Zəngilan, Ordubad, Şahbuz və b. rayonların düşmənə girov düşmüş onlarla sakini ermənilərdən alınıb ailələrinə təhvil verilmişdi. 1991-ci il dekabrın 6-da 10 №-li Ordubad Dəmiryol Stansiyasının 12 nəfərdən ibarət təmirçilər briqadası dəmir yolunun Ermənistanın Mehri rayonu sahəsində iş apararkən ermənilər tərəfindən oğurlanmışdı. Heydər Əliyevin Ermənistan prezidenti ilə apardığı danışıqların nəticəsində dekabrın 10-da bütün girovlar geri qaytarılmışdı. Onlardan 9-u Ordubad, 3-ü isə Zəngilan rayon sakinləri idilər. Bu dövrdə düşmən tərəfindən girov götürülmə halı ən çox Bakı-Naxçıvan sərnişin qatarının Mehri rayonundan keçməsi ilə bağlı idi. Belə ki, 1991-ci il dekabrın 16-da Bakıdan muxtar respublikaya gələn qatarın 113 nəfər sərnişinini Mehri dəmiryolu stansiyasında ermənilər girov götürmüşdülər. Operativ şəkildə aparılan danışıqlar nəticəsində 111 nəfər dərhal azad edilmiş, daha 2 girov isə 1992-ci il yanvarın 6-da Naxçıvana təhvil verilmişdi.

Azərbaycanda dövlət səviyyəsində əsir, girov və itkin düşmüş insanlarla bağlı tədbirlərin görülməsinə yalnız 1993-cü ilin əvvəllərində başlanıldı. Prezident Əbülfəz Elçibəyin 13 yanvar 1993-cü il tarixli 282 №li Sərəncamı ilə girov götürülmüş vətəndaşlarla əlaqədar yaradılan Dövlət Komissiyası sədrdən, bir müavin və 22 üzvdən ibarət idi. Girov götürülən şəxslərinin siyahısının tərtib edilməsi, axtarılması, düşmən əsirliyində saxlanıldıqları yerlərin müəyyən edilməsi və vətənə qaytarılması

məqsədi ilə müvafiq dövlət orqanları və ictimai təşkilatlarla əlaqəli tədbirlərin həyata keçirilməsi, girovların məsələsinə dair təkliflərin hazırlanması, beynəlxalq təşkilatlarla əməkdaşlığın təmin edilməsi Dövlət Komissiyasına həvalə olundu. 19 yanvar 1993-cü ildə ölkənin bütün şəhər və rayon icra hakimiyyətlərinə təlimat səciyyəli məktub göndərildi. 8 fevral 1993-cü il tarixli 460 №-li Prezident Fərmanı ilə Dövlət Komissiyası haqqında Əsasnamə, mart ayında isə Komissiyanın İş planı təsdiq olundu. Prezidentin 30 mart 1993-cü il tarixli 359 №-li Sərəncamı ilə Əsasnaməyə uyğun olaraq tərkibi 10 nəfərdən ibarət olan və daimi fəaliyyət göstərən İşçi qrupu yaradıldı. Ehtiyatda olan polkovnik X.Bağırov Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1 aprel 1993-cü il tarixli 202 saylı qərarı ilə İşçi qrupunun rəhbəri təyin edildi.

Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə ölkədə hakimiyyətə qayıtmasından sonra bu sahədə işlər daha da intensivləşdirildi. İlk növbədə Dövlət Komissiyasının fəaliyyətinə Prezident nəzarəti təmin olundu. Azərbaycan Respublikası Milli Məclisi ölkəmizin beynəlxalq hüququn əsas mənbələri olan "Döyüşən silahlı qüvvələrdə yaralıların və xəstələrin vəziyyətinin yaxşılaşdırılması haqqında", "Əsir və girovlarla rəftar haqqında" Konvensiyalar və onlara I və II Əlavə Protokollara qoşulması haqqında qərar qəbul etdi. 1 mart 2001-ci il tarixli 635 №-li Sərəncamla Dövlət Komissiyasının yeni tərkibi, 18 iyul 2001-ci il tarixli 536 №-li Fərmanla isə Komissiyanın yeni Əsasnaməsi təsdiq edildi.

"Münaqişə qurbanlarının şəxsiyyətinin, saxlanma yerinin müəyyənləşdirilməsi və əsirlikdən qurtarılması" adlanan II yarımfəsildə görülən tədbirlər nəticəsində 4000 nəfərə yaxın əsir, girov və itkin düşmüş vətəndaşın siyahısının hazırlanması, cinsi və yaş dərəcələrinə görə təsnifatının konkretləşdirilməsindən danışılır. Əsir və girovluqdan qayıdanların və valideynlərin məlumatları əsasında Ermənistanda və işğal edilmiş ərazilərimizdə 600-ə yaxın əsir və girovun saxlanıldığı yer müəyyənləşdirildi. 1993-cü ilin sonuna olan məlumata görə, iki min nəfərdən artıq vətəndaşın əsir və girov saxlanması ermənilər tərəfindən danılsa da, təkcə Sisian Polis İdarəsində 12, Qafan Polis İdarəsində 10, Yerevandakı 10724 №-li hərbi Polis İdarəsində 34, Vardenis Polis İdarəsində 8 nəfər və s. azərbaycanlının saxlanması faktı dəlillərlə dəqiqləşdirildi. Ermənistan cəmi 34 soydaşımızın əsirlikdə olduğunu etiraf etməklə kifayətləndi.

2001-ci ildə aparılan axtarış-araşdırma nəticəsində əvvəllər əsirlikdə olması şahid ifadələri ilə təsdiq edilmiş, lakin müvafiq siyahılarda adı olmayan 100-ə yaxın şəxs müəyyənləşdirildi. İtkin düşən vətəndaşların

yaxınlarından daxil olan 1067 məktub, ərizə və müraciətə baxıldı. 500-ə yaxın şəxs Dövlət Komissiyasının İşçi qrupunda, 1850 nəfəri isə rayonlara ezam olunan əməkdaşlar qəbul edərək dinlədilər. Əsir, girov və itkinlərlə rastlaşdığını təsdiq edən və əsirlikdən vətənə qayıdan 500-ə yaxın şahiddən müsahibələr götürülərək, videolentin yaddaşına köçürüldü. Ümumiyyətlə, 1993-2001-ci illər arasında həyata keçirilən tədbirlər nəticəsində 4959 nəfərin müharibə zonasında itkin düşməsi faktı qeydə alındı. Onlardan 71-i uşaq, 320-si qadın, 358-i isə yaşı altmışı ötmüş şəxslər idi. 783 nəfərin, o cümlədən 18 uşaq, 43 qadın və 56 qocanın girovluğu və saxlandıqları yerlər dəqiqləşdirildi. 2002-ci ilin əvvəlində əsirlikdə olan və ya itkin düşən daha 6 şəxs müəyyən edildi, siyahıdakı say 4959-dan 4965-ə qalxdı.

2002-ci ildə işgəncə nəticəsində törədilən 22 ölüm faktı aşkar olundu. Aparılan iş nəticəsində uzun müddət taleyi qaranlıq qalmış 37 müharibə qurbanının haqqındakı məlumatlar dəqiqləşdirildi. 2003-cü ilin yekun məlumatına görə əsir, girov və itkin düşənlərin sayı 4891 nəfər idi.

1 dekabr 2004-cü il tarixə olan məlumata əsasən 1360 nəfər, o cümlədən 166 uşaq, 335 qadın və 286 qoca əsir və girovluqdan azad edilmiş, 4852 nəfərin, o cümlədən 54 uşaq, 323 qadın, 410 qocanın itkin kimi qeydiyyatdan keçirildiyi dəqiqləşdirilmiş, onlardan 783 nəfərinin, o cümlədən 18 uşaq, 46 qadın və 69 qocanın əsir və girov götürülməsinə dair dəqiq faktlar toplanmışdı. 2004-cü ilin sonunadək əsirlikdən 1357 nəfər azad olunmuşdusa, 2005-ci ildə bu say 23 nəfər artaraq 1380 nəfərə çatmışdı. 4740 nəfər itkin düşmüş şəxs kimi müvafiq siyahıya salınmışdı. 25 dekabr 2008-ci il tarixə olan məlumata görə 1396 nəfər əsir və girovluqdan azad olunmuşdu.

Dövlət Komissiyasının 2012-ci il oktyabrın 1-ə olan məlumatına görə əsir, itkin düşmüş və girov götürülmüş şəxslərin sayı 4030 nəfər təşkil etmişdir. Onlardan 3256 nəfər hərbiçi, 773 nəfər mülki şəxslərdir. 3 nəfərin hərbçi və ya mülki olduğu məlum deyil. Mülki şəxslərdən 46 nəfəri itkin düşərkən yetkinlik yaşına çatmamış uşaq, o cümlədən 16 azyaşlı qız, 255 nəfər qadın, 353 nəfər yaşlı şəxs, o cümlədən 154 yaşlı qadın olmuşdur.

Əsir, itkin düşmüş 4030 nəfərdən 877 nəfərin əsir və girov götürülməsi barədə məlumatlar daxil olmuş, şahid ifadələri alınmışdı.

Əsir və girovluqdan 1401 nəfər azad edilmişdir. Onlardan 342 nəfər qadın, 1058 nəfər kişidir. Azad edilənlərin 175 nəfəri uşaq, o cümlədən 64 nəfər azyaşlı qız, 289 nəfər yaşlı şəxs, o cümlədən 112 nəfər yaşlı qadın olmuşdur.  553 nəfərin girovluqda qətlə yetirildiyi və ya müxtəlif səbəblərdən vəfat etdiyi müəyyən edilmişdir. Onlardan 104 nəfər

qadın, 448 nəfər kişidir. 137 nəfərin yalnız adı məlumdur, 74 nəfər isə naməlum şəxslərdir.

"Əsir, girov və itkinlərin axtarışı sahəsində beynəlxalq əlaqələr" adlanan III yarımfəsildə ölkəmizin 1993-cü il aprelin 21-də Cenevrə Konvensiyalarına qoşulması barədə İsveç Federal Şurasına rəsmi məlumat göndərməsi ilə fəaliyyəti üçün hüquqi zəmin yaranan BQXK və başqa beynəlxalq humanitar təşkilatlarla əlaqələri araşdırılır. BQXK Azərbaycanda saxlanılan, törətdikləri cinayətə görə məhkəmə hökmü ilə ölümə məhkum olunmuş erməni məhkumlarla düşmən əlində olan azərbaycanlı əsir və girovların mübadiləsi haqqında təşəbbüsünü irəli sürmüşdü.

1993-cü il fevralın 6-8-də İsveçrənin Montre şəhərində katalikos I Vazgenlə görüşdə Şeyxülislam A.Paşazadə girovların qısa müddətdə qeyd-şərtsiz "hamının-hamıya" prinsipi ilə dəyişdirilməsini təklif etdi. Ümumdünya Kilsələr Şurasının təşəbbüsü, Avropa Kilsələr Şurasının əməkdaşlığı və Ümumdünya İslam Şurası Baş katibinin iştirakı ilə keçirilən görüşdə qəbul edilən kommünikedə qan tökülməsinin qarşısının alınması, münaqişənin danışıqlar yolu ilə, ədalətlə, siyasi vasitələrlə həll edilməsinin məqsədəuyğunluğu vurğulandı. Əsir və girovlara milliyyətinə fərq qoymadan yardım göstərilməsi məqsədilə yaradılan Vahid Humanitar Fond girov saxlanılan qadın və uşaqların şərtsiz azad edilməsinə, əsirlərlə Cenevrə Konvensiya-sına uyğun rəftar olunmasına dəvət ifadə etdi. Fevralın 9-da ÜKŞ Baş katibi K.Reyzerin, AKŞ Baş katibi C.Fişerin həmrəy olduğu müraciət Azərbaycan və Ermənistan rəhbərliklərinə göndərildi. "Hamının-hamıya" prinsipi ilə əsir və girovların dəyişdirilməsi təşəbbüsünü təqdir edən BQXK Mərkəzi Şurasının Moskva nümayəndəliyində 9 mart 1993-cü il tarixdə əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar hər iki ölkənin Dövlət Komissiyaları rəhbərlərinin ilk görüşü keçirildi. Təklif olunan saziş layihəsində girovların, yaralı və ağır xəstə hərbi əsirlərin, döyüş meydanında həlak olanların cəsədlərinin 48 saat ərzində şərtsiz dəyişdirilməsi, hərbi əsirlər üçün 1949-cu il Cenevrə Konvensiyalarının tələblərinə uyğun şərait yaradılması vurğulanırdı. Lakin martın sonunda Ermənistan qondarma "DQR" nümayəndəsinin iştirakı olmadan sazişi imzalamayacağını bildirdi.

1993-cü ildə BQXK vasitəsi ilə 4, beynəlxalq səlahiyyətli səfir M.Rafaelli vasitəsi ilə 5 nəfərin əsir və girov ölkəmizə qaytarıldı. Almaniyanın H.Bell Fondunun maliyyələşdirdiyi Əsir, girov və itkinlərin axtarışı üzrə Beynəlxalq İşçi Qrupu (BİQ) ilə əməkdaşlıq yaradıldı.

Azərbaycan 1999-cu il mayın 7-də, atəşkəs barədə razılığın ildönümü ərəfəsində "hamının-hamıya" prinsipi ilə hər iki tərəfdə olan

əsirlərin dəyişdirilməsi təklifi ilə çıxış etdi. Lakin Ermənistan təklifə razılıq vermədi.

1999-cu ilin dekabrında AŞ PA Siyasi Komitəsində əsir, girov və itkin düşmüş şəxslərlə bağlı məsələ müzakirə edildi, Azərbaycan nümayəndə heyətinin təşəbbüsü ilə aşağıdakı prinsiplərin yerinə yetirilməsi təklifi irəli sürüldü: hərbi əsir, girov və itkin düşmüş şəxslərin problemləri humanitar məsələdir və siyasi məqsədlə istifadə olunmasın; BQXK-nın qeydiyyata aldığı əsirlər dərhal azad edilsin; itkin düşmüş şəxslərin axtarışı məqsədilə birgə iş, daxil olan informasiyalar barədə qarşılıqlı mübadilə təşkil edilsin; humanitar təşkilatlar və tərəflərin nümayəndələrinə əsirlərin saxlanma yerlərinə baş çəkməyə şərait yaradılsın və s. Azərbaycan Respublikası Milli Məclisi prinsipləri qəbul etdiyi barədə 1999-cu il dekabrın 30-da bəyanat versə də, Ermənistan parlamenti rəsmi mövqe bildirmədi.

BİQ üzvlərinin Azərbaycana və Ermənistana səfərləri heç bir əməli nəticə vermədiyindən ölkəmiz bu qrupla əməkdaşlıqdan imtina etdi.

BMT İnsan Hüquqları Komissiyasının 2002-ci ilin aprelində keçirilən 58-ci sessiyasında Azərbaycan tərəfindən irəli sürülmüş “İtkin düşmüş şəxslər” barədə qətnamə konsensusla qəbul edildi. 17 dövlət qətnaməyə həmmüəllif qismində qoşuldu. Qətnamənin qəbul olunmasında həmçinin Avropa İttifaqının, İKT-nin, BQXK və “Müharibə qurbanlarının müdafiəsi haqqında” 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyalarının və əlavə protokolların depozitoru olan İsveçrə nümayəndələri fəallıq göstərdilər.

Dövlət Komissiyası 2008-ci ildən BQXK ilə birlikdə “Anti-Mortem” və “Post-Mortem” proqramlarının həyata keçirilməsi üzərində işləyir. Bu proqramlar çərçivəsində işğal altında olan ərazilərdə qalmış cəsədlərin yerinin müəyyənləşdirilməsinə imkan verən məlumatların, eləcə də itkinlərin qohumlarından götürülən DNT nümunələrinin yığılması və mühafizə olunması həyata keçirilir. Bu, həlak olmuş soydaşlarımızın cəsədlərinin işğal olunmuş ərazilərin azad edilməsindən sonra məqsədəmüvafiq axtarışını, tapılmış meyitlərin qalıqlarının identifikasiyasının keçirilməsini təmin etməyə imkan verəcəkdir. İtkinlərin qohumlarından götürülən nümunələr tapılmış cəsədlərin qalıqları ilə tutuşdurulacaq ki, bu da həlak olanların şəxsiyyətini müəyyənləşdirmək imkanı yaradacaqdır.

Dissertasiyanın II fəsli “Əsir və girovların ermənilər tərəfindən məruz qoyulduqları işgəncələr beynəlxalq hüquqa zidd, bəşəri cinayətdir” adlanır və dörd yarımfəslə bölünür. “Hərbi əsir və mülki girovlarla rəftarda vandalizm Ermənistanın Azərbaycan xalqına qarşı soyqırımı siyasətinin

davamıdır" adlanan ilk yarımfəsildə əsirlikdə olan soydaşlarımıza qarşı xüsusi amansızlıqla işgəncələrin verilməsi və onların qəddarlıqla qətlə yetirilmələrinə dair faktlardan bəhs olunur. 1992-ci ilin yanvar-fevral aylarında Azərbaycan ordusunun uğursuzluqla nəticələnən Daşaltı əməliyyatında 100 nəfərə yaxın ölən və yaralanan oldu. 1992-ci il fevralın 12-də Malıbəyli və Quşçular kəndləri, fevralın 17-də isə Xocavənd rayonu erməni hərbi birləşmələri tərəfindən işğal edildi. Qaradağlı kəndindən götürülən 117 girov Xankəndinə aparılarkən onların 56-sı güllələndi, silos quyusuna tökülərək, üstü traktorla torpaqlandı. Qaradağlı faciəsində 77 nəfər qətlə yetirildi. Öldürülənlərin 18-20 nəfəri 10-12 yaşlı uşaqlar olmuş, 1 nəfərin üzərindən "Kamaz" markalı maşın sürülərək qətlə yetirilmiş, 3 nəfərin üstünə neft tökülərək yandırılmış, 2 girovun başları kəsilmişdi.

Daha dəhşətli faciə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda törədildi. Bu soyqırımında erməni və rus silahlılarının qətlə yetirdikləri 613 nəfərin 63-ü azyaşlı uşaq, 109-u qadın, 70-i qocalar idi. Faciədən sonra ələ keçirilmiş bəzi meyitlərin müayinəsi, məhkəmə-tibbi ekspertizalarının rəyləri, mühasirədən çıxmağa, girovluqdan qaçmağa nail olanların ifadələri düşmənin dinc sakinlərə vəhşicəsinə işgəncələr verdiyini təsdiq edir.

Beynəlxalq hüquq əsir və girovlara zəruri tibbi yardım göstərilməsini nəzərdə tutduğu halda, ermənilər nəinki tibbi yardım göstərmir, əksinə, onları əzablara məruz qoyurdu. Girovlar işgəncə, aclıq və susuzluq üzündən sağalmaz xəstəliyə düçar olurdular. Əsirlərin bədəninə iynə ilə naməlum tərkibli maddə yeridildiyindən qıcolma, iflic xəstəliyinə düçar olurdular. Girov G.Quliyevanın yeni doğulmuş körpəsi vurulan naməlum tərkibli iynə nəticəsində inkişafdan qalmış, 10 yaşında dünyasını dəyişmişdi. Əsirlərə qarşı ən müxtəlif vəhşi işgəncə növləri sınaqdan keçirilmişdi.

Ağdam rayon sakini, milliyyətcə rus olan, ermənilərə əsir düşmüş V.Şevelyovun ifadəsinə görə, 89 yaşlı xəstə anasını, ahıl yaşlı bacısını və 58 yaşlı xəstə qardaşını ermənilər vəhşicəsinə öldürmüş, sonra yandırmışdılar. Zəngilanda girov götürülən, tatar olduğunu düşünərək, ermənilərin ona toxunmayacağını zənn edən 63 yaşlı M.Cəfərovaya dörd ay amansız işgəncə vermişdilər. Şuşa həbsxanasında Nadir adlı əsir 380 voltluq elektrik məftilinin üstünə itələnmiş və onun bədənin dərhal yanaraq tüstüləmişdi. 1994-cü il martın 10-a olan məlumata görə 3687 əsir və girovun, o cümlədən 1-14 yaşlı 91 uşağın, 364 qadının, 257 qocanın əsirlikdə olması faktı danılır, onlara işgəncələr verilməsi davam etdirilirdi.

Fəslin II yarımfəsli "Erməni əsirliyindən xilas edilmiş vətəndaşların sosial reabilitasiyası" adlanır. Bu yarımfəsildə əsir və girovluqdan azad edilərək ölkəyə qaytarılmış insanların filtrasiya prosesinə cəlb olunmasından və sosial reabilitasiyasından bəhs olunur. Vətənə qayıdanların bəziləri ermənilər tərəfindən yoluxucu xəstəliyə məruz qoyulduğu halda, filtrasiyaya cəlb edilmədən, elə dəyişilmə zonasından birbaşa evlərinə buraxılmışdı.

Filtrasiyadan kənarda qalma halları Azərbaycanın dövlət təhlükəsizliyi üçün gələcəkdə təhlükə yarada bilərdi. Belə ki, əsirlikdə olub azad edilmiş vətəndaşların bir qismi ciddi yoluxucu xəstəliklərə məruz qalmış, bəziləri erməni xüsusi xidmət orqanları ilə əməkdaşlığa cəlb edilmişdi. Axtarış tədbirləri sayəsində qiymətli məlumat daşıyıcıları və əməliyyat əhəmiyyəti kəsb edəcək, lakin diqqətdən kənarda qalmış şəxslər aydınlaşdırılmış, barələrində müvafiq orqanlara məlumat verilmişdi.

1997-ci ilə qədər filtrasiyaya cəlb edilmək üçün 18-65 yaş həddinin qanunilaşdirilməməsi vəziyyətin nizama salınmasına mane olurdu. Yalnız 1997-2001-ci illərdə aparılan iş nəticəsində bir neçə il ərzində filtrasiyadan kənarda qalmış 100-dən yuxarı şəxs aşkarlanıb barələrindəki məlumatlar nazirliyin aidiyyəti şöbəsinə təqdim edildi. Tək bir epizod üzrə 80 nəfərdən 60 nəfəri barədə filtrasiya işi açılmışdı.

2003-cü ilin dekabrında əsirlikdən azad edilmiş vətəndaşların sayının dəqiqləşdirilməsi, reabilitasiya tədbirlərinin təşkili məqsədilə daxil olmuş siyahıların araşdırılması nəticəsində azad edilmiş 10 nəfər müəyyənləşdirildi və adları siyahıya salındı. 2004-cü ilin sentyabrına qədərki müddətdə əvvəllər azad edilmiş daha 12 şəxsin kimliyi müəyyən olundu. 2006-cı ilin təkcə birinci yarısında 25 nəfərin sosial problemləri həll olunmuşdu.

"Azərbaycanda saxlanılan erməni milliyyətli şəxslərə humanist münasibət türk əxlaqının ifadəsidir" adlanan III yarımfəsildə ölkəmizdə əsirlikdə olan ermənilərə münasibətdə gözlənilən humanizm prinsipləri və beynəlxalq hüquq normalarına riayət edilməsindən danışılır. Hərbi münaqişə zonasında tutulmuş erməni hərbi əsirlərin və digər əsaslara görə saxlanılanların bir yerə cəmləşdirilməsinə dair Azərbaycan Prezidentinin 11 may 1993-cü il tarixli Sərəncamı ilə onların Qobustan qəsəbəsindəki 3 №-li islah-əmək müəssisəsində dövlət nəzarəti altında saxlanılması təşkil edildi.

1993-cü ilin avqustunda ölkə Prezidentinin səlahiyyətlərini həyata keçirən Heydər Əliyevin göstərişinə əsasən, aralarında qadın və şikəstlərin də olduğu axırıncı erməni girov qrupu birtərəfli qaydada, beynəlxalq

humanitar hüququn tələblərinə uyğun olaraq, azad edildi. 70 nəfərdən yuxarı erməni heç bir qeyd-şərt qoyulmadan qarşı tərəfə qaytarıldı.

1994-2006-cı illərdə saxlanılan ermənilər əsasən qoşunların təmas xəttində xidmət edən, azaraq Azərbaycanın mövqe xəttinə yaxınlaşan hərbi qulluqçular və müxtəlif səbəblər üzündən könüllü təslim olmuş fərarilər idi.

1999-cu ilin sentyabrında Azərbaycan tərəfi "hamının-hamıya" prinsipini əsas tutaraq, 4 erməni hərbi əsiri tibbi müayinədən keçirilərək, sağlam diaqnozla ATƏT nümayəndəsinə təhvil verdi. 2000-ci ilin ortalarında Ermənistan ordusunun 3 əsgəri Azərbaycan tərəfinə könüllü təslim olmuşdular. Onlar qayıtmaqdan imtina etsələr də, Ermənistana göndərilmişdilər.

Ümumiyyətlə, 1993-2000-ci illər ərzində Dövlət Komissiyası tərəfindən 334 erməni əsiri azad edilmişdi. Bu məqsədlə aidiyyəti orqanlara müxtəlif sorğular verilmiş və dəqiqləşdirmələr aparılmışdı. 2001-ci ildəki araşdırmalar nəticəsində münaqişə dövründə əlavə olaraq 144 nəfər ermənინin əsirlikdən azad edilməsi faktı aşkarlanmış, onların sayı 450 nəfərə çatmışdı. Həmin ildə Azərbaycan ərazisində şübhəli şəxs qismində saxlanılmış 3 erməni qarşı tərəfə qaytarılmışdı. Bundan sonra Azərbaycanda bir nəfər belə erməni əsir və girovu qalmadığı barədə rəsmi məlumat verilmişdi.

II fəslin "Erməni cinayətlərinin hüquqi təhqiqi gələcək beynəlxalq mühakimə üçün zəmindir" adlanan IV yarımfəslində münaqişə dövründə ermənilərin azərbaycanlılara qarşı törətdikləri cinayətlərin hüquqi təhqiqi prosesi tədqiq olunur. 1993-cü ildə azərbaycanlı əsir və girovların qeyri-leqal dəyişdirilməsi, satılması faktı etiraf olunmuşdu. Ermənilər həm canlı insanın, həm də onun ayrı-ayrı orqanlarının tacirlərinə çevrilmişdilər. Rusiya mətbuatı 1993-cü ildə insan orqanlarının satışı üzrə beynəlxalq qara bazarda Ermənistanın birinci yerdə olması barədə yazırdı. Narahatlıq doğuran bu idi ki, satışa çıxarılan orqanların ermənilərin əsir və girov götürdüyü azərbaycanlılara aid olmasını beynəlxalq təşkilatlar da təsdiqləyirdi. Təsadüfi deyil ki, 700-dən çox soydaşımızın taleyi bu günə qədər qaranlıq qalır.

1997-2000-ci illərdə aparılan təhqiqat nəticəsində azərbaycanlı əsirlərə qarşı konkret cinayətləri törədənlər aydınlaşdırıldı. Toplanan sübutlar 176 nəfərin əsir və girovluq dövründə öldürülməsi faktını üzə çıxardı.

1999-2000-ci illərdə cinayətkarların şəkilləri və 650 keçmiş əsir və girovun şəhadəti əsasında hazırlanmış xüsusi videofondun materialları, aparılan tanınma tədbirləri nəticəsində gələcəkdə cinayətkarların

beynəlxalq məhkəmə qarşısına çıxarılması üçün ciddi dəlillər əldə olundu. Girovluqda öldürülənlərin siyahısının dəqiqləşdirilməsi nəticəsində 2001-ci ildə 226 nəfərin qəsdən öldürüldüyü sübut olundu.147 nəfər müxtəlif vəzifəli və rütbəli erməniyə aid izahlı mətnlərdən ibarət fotoalbom, 4 nəfərin əlavə izahatı, 17 nəfərə dair videoçəkiliş, 1992-1993-cü illərdə Şuşa həbsxanasında saxlanan şəxslərin siyahısı hazırlanıb Hərbi Prokurorluğa təqdim olundu.

Respublika Baş prokurorunun qərarı ilə 27 fevral 1992-ci il tarixli 64524 saylı və 27 noyabr 2002-ci il tarixli cinayət işlərinin istintaqı hərəkətə gətirildi. Xocalıya hücumda iştirak etmiş və girov götürülmüş şəxslərə işgəncələr vermiş 5 nəfər erməninin adı tam müəyyən edildi.

2002-ci ilin dekabr ayında əsirlikdən qayıdan 38 nəfərdən alınan izahat nəticəsində 79 erməniyə dair əlavə cinayət faktı aşkar edilmişdi. 2002-ci ildə alınmış izahatların araşdırılması və təhlil olunması nəticəsində 563 nəfər Azərbaycan vətəndaşının əsir və girov götürüldükdən sonra öldürülməsi faktı aşkar edildi. Onlardan 304-nün şəxsiyyəti tam, 82 nəfərin yalnız adları dəqiqləşdirildi. 177 nəfərin şəxsiyyəti isə hələlik naməlum qaldı. Ölkə mətbuatı əsir və girovlara qarşı cinayət işlətmiş, haqqında qanuna müvafiq olaraq cinayət işi qaldırılmış 141 erməninin siyahısını dərc etmişdi.

Ümumiyyətlə, 2003-cü ildə əsir və girovluqda qətlə yetirilmiş 600-dən çox insanın şəxsiyyəti dəqiqləşdirilmişdi.

Ermənilər Azərbaycan ərazisində bir sıra terror aktları həyata keçirmişdilər. 5 nəfərin həlak olduğu, 25 nəfərin yaralandığı 16 sentyabr 1989-cu ildə Tbilisi-Bakı, 13 nəfərin ağır yaralandığı 18 fevral 1990-cı ildə Şuşa-Bakı, 20 nəfərin ölümü, 30 nəfərin yaralanması ilə nəticələnmiş Tbilisi-Ağdam sərnişin avtobuslarında, 30 may 1991-ci ildə Rusiya ərazisində Dağıstanın Xasavyurd stansiyasında Moskva-Bakı sərnişin qatarında 11 nəfərin ölümü, 22 nəfərin yaralanması, 20 noyabr 1991-ci ildə Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında “Mi-8” vertolyotunda 19 nəfərin, o cümlədən Azərbaycanın görkəmli dövlət xadimlərinin, Rusiyadan və Qazaxıstandan olan hərbiçilərin həlak olması, 1 fevral 1994-cü ildə Kislovodsk-Bakı qatarında 3 nəfərin ölümü, 20 nəfərin yaralanması, 19 mart 1994-cü ildə 14 nəfərin ölümü, 49 nəfərin yaralanması, 3 iyul 1994-cü ildə Bakı Metropoliteninin “28 May” və “Gənclik” stansiyaları arasında 13 nəfərin ölümü ilə nəticələnən terror aktları törədilmişdi. Bütün bunlar erməni terrorunun təkcə ölkəmiz üçün deyil, bütün bəşəriyyət üçün böyük təhlükə olduğunu göstərirdi.

Azərbaycana qarşı törədilən 30-dan artıq terror aktında 2000-dən artıq insan həlak, yüzlərlə insan isə ömürlük şikəst olmuşdu.

Dissertasiyanın III fəsli "Qaniçən erməni xislətinin dünya ictimaiyyətinə çatdırılması" adlanır və fəsil iki yarımfəslə bölünür. "Erməni zorakılığının ifşası ölkədaxili təbliğatda" adlanan I yarımfəsildə erməni vandalizminin ifşası istiqamətində həyata keçirilən tədbirlər şərh olunur. Bu məqsədlə 2001-ci ildən başlayaraq əsir, girov və itkin düşənlərin axtarışının keyfiyyətini artırmaq məqsədi ilə təbliğat-təşviqat işləri genişləndirildi. Əsirlikdə olarkən düşmənə boyun əyməyərək mərdlik göstərənlər haqqında 1, əsir və girovların taleyi ilə bağlı 5 sənədli film çəkildi və telekanallarda göstərildi. V.Mövsümovanın "Soyqırımı" adlı filmləri, Xocalı sakinlərinin sağ qalması üçün düşmənə əsir düşmuş əsgər N.Qasımov barədə "Lider" telekanalının çəkdiyi film, N.İsmayılovanın "Ojidanie" filmi müharibə qurbanları haqqında ictimaiyyətin məlumatlandırılmasında böyük rol oynadı.

R.Mustafayevin iştirakı ilə "Biz terrora "yox!" deyirik" adı ilə 2002-ci il aprelin 23-də Bakıda əsir və girovlara həsr edilmiş tədbirdə fotostend təşkil olunmuş, eyni adlı film nümayiş etdirilmişdi. Xocavənd rayonunun Qaradağlı kəndində işğal zamanı törədilmiş soyqırımı əks etdirən "Hərb və sülh" sənədli filmi 2003-cü ilin fevralında efirə verilmiş, əsirlikdən azad edilmiş şəxslərin erməni vəhşilikləri ilə bağlı müsahibələri təşkil edilmiş, "Hər şey Vətən üçün" adlı teleproqramın xüsusi buraxılışı yayımlanmışdı. Mətbuatda erməni vandalizmini ifşa edən onlarla material yayılmışdı.

2004-cü il ərzində ölkə daxilində və xaricdə 110 nüsxədə Dövlət Komissiyasının materiallar toplusu, 35 ədəd "Erməni terror və quldur birləşmələrinin bəşəriyyətə qarşı cinayətləri" adlı kitab, 410 ədəd "Erməni terroru" elektron diski yayılmışdı.

Ölkənin müxtəlif ali və orta məktəblərində münaqişənin nəticələri, Xocalı soyqırımı ilə bağlı keçirilən tədbirlərdə, xarici ölkə səfirlərinin və beynəlxalq təşkilatların nümayəndələrinin də təmsil olunduqları mətbuat konfranslarında Dövlət Komissiyasının üzvləri iştirak etmiş və xeyli sənədli materialın, Komissiyanın əsir, girov və itkin düşmüş şəxslər, erməni terroru, soyqırım və işgəncə faktlarını əks etdirilən məlumat toplusu,"Armenian terror", "Ojidanie" filmləri yazılmış elektron disklər, "Sarı sim", "Erməni cinayətləri", "Soyqırım analardan başlanır" adlı kitablar, fotoşəkillər çoxaldılıb yayılmışdı. Təhsil Nazirliyi ilə birlikdə 31 mart 2005-ci il tarixdə gənc rəssamların "Erməni terroru" mövzusunda rəsm sərgisi keçirilmişdi.

KİV-də “Erməni terroru” kitab-albomunu, “www.human. gov.az” saytını təbliğ edən materiallar getmiş, sayt Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin və BMT-nin “Milli idarəetmə şəbəkələri” proqramı çərçivəsində təşkil etdiyi “Azerbaijan E-Content Award-2005” müsabiqəsində “E-hökumət” nominasiyasının qalibi olmuşdu.

2009-cu il aprelin 23-də AMEA İnsan Hüquqları İnstitutu ilə birgə keçirilən “Ermənilik: mif və reallıq” mövzusunda elmi-praktik konfransda Dövlət Komissiyasının üzvləri, bu sahənin tədqiqatçıları iştirak etmış, ermənilərin işğalçılıq niyyətləri konkret faktlar əsasında ifşa olunmuşdu.

2009-cu il aprelin 29-da Bakıda T.Çaladze tərəfindən hazırlanmış “Karabaxskiy qenosid: Obreçenniy Xodjalı” kitabının təqdimat mərasimi keçirilmiş, 2008-2009-cu illər üçün Dövlət Komissiyasının materiallar toplusu (Azərbaycan, rus və ingilis dillərində), “Erməni terroru”, “Bizi əsirlikdən qurtarın”, “Qarabağ dünən, bu gün fotoşəkillərdə”, “Arazın hər iki tayında müsəlmanların soyqırımı” adlı kitablar, “Qarabağ” kitabının CD variantı, avstraliyalı alim E.Fayqlın “Terror haqqında həqiqət”, “Kəskin dönüş, erməni mifomaniyası və həqiqət” adlı kitablarının CD variantı, erməni cinayətlərini əks etdirən kompakt disklər ölkədə yayılmışdı.

III fəslin “Beynəlxalq aləmdə erməni vandalizminin ifşası istiqamətində görülən işlər” adlı II yarımfəslində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri, düşmənin əsir və girovlara münasibətdə vəhşi münasibətinin dünyada ifşası istiqamətində həyata keçirilən tədbirlər araşdırılır. Əsir və girovluqda olan, saxlanma yeri müəyyən edilən 730 nəfər haqqında məlumat internet saytında yerləşdirilmişdi. 2002-ci ilin mayında çəkilmiş “Ojidaniye” filmi “www.khojalu.orq.az” internet saytında yerləşdirilmişdir. Dövlət Komissiyasının internet saytının yeni variantı hazırlanmış, “Erməni terrorizmi”, “Soyqırım”, “Əsir və girovlar” bölməsi üzrə ilkin mətnlər, faktları əks etdirən fotomateriallar və Azərbaycanda terror törətmiş ermənilərin hadisə üzrə verdiyi izahatlar saytda yerləşdirilmişdir. Ölkəmizdə və xaricdə keçirilən bir çox tədbirlərdə erməni vandalizmini əks etdirən foto-stendlər, sərgilər nümayiş etdirilmiş, sənədli materiallar, kitab və bukletlər yayılmış, çəkilmiş filmlər göstərilmişdir.

2003-cü ilin əvvəlində erməni təcavüzünü və cinayətlərini əks etdirən materiallar əsasında Dövlət Komissiyasının “www.human.az” saytı istifadəyə verilmişdi. 1 sentyabr 2003-cü il tarixədək sayta 10651 giriş olmuşdu. Saytda “Erməni terrorizmi”, “Soyqırım”, “İşğal”, “Əsir, girov və itkin düşmüşlər”, “İşgəncələr”, “Dövlət Komissiyası haqqında”, “Xəbərlər”, “Foto”, “Video”, “Hüquqi sənədlər”, “Bizimlə əlaqə” bölmələri yaradılmışdır.

Dövlət Komissiyası AMEA İnsan Hüquqları İnstitutu və Qafqaz Universiteti ilə birlikdə 2003-cü ilin may aynın 2-3-də Bakı şəhərində "Beynəlxalq erməni terrorizmi insan hüquqlarına təhdiddir" mövzusunda beynəlxalq konfrans təşkil etmişdi. 7-29 iyun 2003-cü il tarixdə İşçi qrupu ABŞ Dövlət Departamentinin təşkil etdiyi proqram çərçivəsində Vaşinqton, Nyu-York və s. şəhərlərdə keçirilən görüşlərdə təmsil olunmuşdu.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında müxtəlif ölkələrin KİV-ində məlumatlar verilmiş, filmlər çəkilib nümayış etdirilmişdi. Holland rejissoru S.Krögerin "Ümid sonda ölür: Qarabağ müharibəsinin itkin düşmüş əsgərləri" adlı ermənipərəst filminin təqdimatı zamanı əks-təbliğat tədbirləri keçirilmiş, telekanallar həmin filmi almaqdan imtina etmişlər. Bundan başqa ermənilərin azərbaycanlılara qarşı təcavüzkar siyasətinə həsr etdiyi "Unudulmuş soyqrım" kitabı üzərində işləyən ABŞ vətəndaşı F.Tsertsvadzeyə çatdırılması üçün XİN-ə erməni vandalizmini əks etdirən xeyli material göndərilmişdi. Ümumiyyətlə, ötən illərdə Dövlət Komissiyasının özünün həyata keçirdiyi təbliğat tədbirlərindən əlavə xaricdə yayılması üçün xeyli sayda "Armenian terror", "Ojidanie", Xocalı soyqırımına həsr olunmuş filmlərin diskləri, sənədli materiallar, ekspert D.Paunderin tibbi-ekspertiza rəyi, terror, qətl, işgəncə faktlarını əks etdirən foto-şəkillər XİN və Diaspora ilə İş üzrə Dövlət Komitəsinə təqdim edilmiş, XİN və Dövlət Komitəsi materialları operativ olaraq xaricdəki nümayəndəliklərə göndərmişdi. Həmin materiallar ABŞ, Böyük Britaniya, Almaniya, Portuqaliya, Fransa, İsveçrə, Belçika, Hollandiya, Danimarka, İsveç, Norveç, İtaliya, Macarıstan, Rusiya, Türkiyə, Qətər, Misir, Filippin və onlarla digər ölkələrdə ictimaiyyət arasında, KİV-də, elektron mediada yayılmışdır.

Dissertasiyanın sonunda tədqiqat nəticəsində əldə olunmuş elmi qənaət ümumiləşdirilmiş, mülahizə və tövsiyələr irəli sürülmüşdür.

Dissertasiyanın əsas məzmunu müəllifin çapdan çıxmış aşağıdakı elmi məqalələrində öz əksini tapmışdır:

1. Azərbaycanlı əsir və girovlara qarşı erməni vandalizmi soyqırımı siyasətinin davamıdır // Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Elmi xəbərləri". Humanitar və təbiət elmləri seriyası, 2006, № 1, s. 95-98

2. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində ermənilər tərəfindən əsir və girov götürülmüş, itkin düşmüş Azərbaycan vətəndaşlarının işi üzrə fəaliyyətin təşkilatlandırılması // Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Xəbərlər"i, 2006, № 4, s. 352-355

3. Ermənilərin əsir və girov götürülmüş vətəndaşlara qarşı vandalizmi Azərbaycan xalqı əleyhinə soyqırımı siyasətinin davamıdır //

AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun “Elmi əsərlər”i, 2009, XXVII cild, s. 180-186

4. Azərbaycanlı əsir və girovlara münasibətdə erməni vəhşiliyinin ifşası istiqamətində Azərbaycanda görülən işlər // Azərbaycan Dövlət Pedaqoji Universitetinin “Xəbərlər”i, 2010, № 2, s. 105-109

5. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dövründə erməni əsarətindən xilas edilmiş vətəndaşların sosial reabilitasiyası // Tarix və onun problemləri, 2010, № 2, s. 129-132

6. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində əsir və girov götürülən, itkin düşənlərin axtarışı sahəsində beynəlxalq əlaqələr / Gənc tədqiqatçıların Ümumrespublika elmi konfransının tezisləri. Bakı: Qafqaz Universiteti, 2010, s. 221-222

7. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində əsir və girov götürülmüş Azərbaycan vətəndaşlarına qarşı erməni cinayətlərinin hüquqi təhqiqi gələcək beynəlxalq mühakimə üçün zəmindir // AMEA Naxçıvan Bölməsinin “Xəbərlər”i. İctimai və humanitar elmlər seriyası, 2010, № 3, s. 99-104

8. Ermənistanın Azərbaycana qarşı işğalçılıq müharibəsində əsir və girov götürülən itkinlərin axtarışı sahəsində beynəlxalq əlaqələr / “Türk dünyası: dünəni və bu günü” mövzusunda beynəlxalq elmi konfransın tezisləri. Bakı: Viktori nəşriyyatı, 2011, s. 249-252

9. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində əsir və girov götürülmüş, itkin düşmüş Azərbaycan vətəndaşlarının axtarışı / Doktorantların və gənc tədqiqatçıların XV Respublika elmi konfransının materialları. Bakı: Bakı Universiteti nəşriyyatı, 2011, s. 274-276

10. Erməni cinayətləri və Azərbaycan həqiqətlərinin təbliğinə dair / “Azərbaycanşünalığın aktual problemləri”, III Beynəlxalq elmi konfransın materialları. Bakı: Mütərcim nəşriyyatı, 2012, s. 497-500

11. Проблемы войны и мира / Кафказ и глобализация – проблемы и перспективы Материалы Международного симпозиума. Телавский Государственный Университет имени Я.Гогебашвили. Телави, 2012, с.78-83

12. Ermənistanın Azərbaycana qarşı işğalçılıq müharibəsində əsir və girov götürülmüş, itkin düşmüş vətəndaşların axtarılması və qaytarılması uğrunda mübarizə / Gənc tədqiqatçıların I Beynəlxalq elmi konfransının materialları. Bakı: Qafqaz Universiteti, 2013, s. 142-143

13. Международные связи в поиске заложников и пропавших без вести граждан / Гилея: Науковий Висник. Збирник наукових праць. Киев: Українська Академія Наук, 2013, №71 (4), стр. 927-934

**Гюльшан Мамед кызы Мустафаева**

# Борьба за поиск и возвращение граждан, попавших в плен и заложники, пропавших без вести в захватнической войне Армении против Азербайджана (конец 80-х годов XX века - начало XXI века)

## РЕЗЮМЕ

Во введении обосновывается актуальность темы, степень изученности, цели и задачи, научная новизна исследования, освещается научно-практическое значение, обращено внимание на апробацию работы.

В I главе под названием «Поиск и спасение граждан, попавших в плен, взятых в заложники, пропавших без вести в Армяно-Азербайджанском, Нагорно-Карабахском конфликте» исследуются причины Нагорно-Карабахского конфликта, судьба пленных, заложников и пропавших без вести, способы освобождения пленных. За прошедшие года из плена было освобождено 1401 человек. В настоящее время пропавшими без вести, заложниками и пленными считаются 4031 человек. В этом вопросе Азербайджан работает совместно с международными гуманитарными организациями.

II глава называется «Пытки против пленных и заложников являются международным преступлением». В данной главе речь идет о пытках, которым подвергаются наши соотечественники будучи в плену и в заложниках, их убийство с особой жестокостью; а также повествуется о людях, освобожденных из плена и процессе социальной реабилитации. В то же время освещается соблюдение принципов гуманизма и международных норм по отношению к армянским пленным. В главе дается юридическая оценка преступлениям армян, совершенным против азербайджанцев.

III глава называется «Донесение до мировой общественности вопиющей сущности армян». Здесь особое внимание уделяется мероприятиям, проводимым для разоблачения армянского вандализма. В главе исследуются факты, раскрывающие дикое отношение армян к заложникам и пленным, а также донесение этих фактов до мировой общественности.

В заключении диссертации приводятся основные выводы и обобщения исследования.

**Gulshan Mammad kizi Mustafayeva**

# The struggle for search and returning of captives, hostages, and missing citizens in the invasional war of Armenia against Azerbaijan (the end of 80's of the XX century – the earlier periods of the XXI century)

## SUMMARY

In "Introduction" traditionally, the actuality of theme, scientific innovation, theoretical and practical importance of the research are grounded, as well as here are given data about the goals, objects, sources and methods of the research and about its approbation and structure.

The first chapter called "The search and rescue of captives, hostages and missing citizens in Upper Karabagh Armenian-Azerbaijan conflict" deals with the causes of begining Upper Karabagh Armenian-Azerbaijan conflict, the fate of captives, hostages, and missing citizens and the issues relating their leberation. During the past time, 1401 people were set free from captivity. Azerbaijan works together with other international organizations.

The second chapter is called "The torture made by armenians towards captives and hostages is against international law and it is a crime against humanity". This chapter deals with social reabilitation and filtration process of people who were once captives and hostages and they were violently treated by armenians, as well as the facts of cruelly killing of our countrymen by armenian invaders. Here is also shown the facts of humanitarian treatment principles towards armenian captives in Azerbaijan and fulfiling international norms of law. Juridical investigation process of crimes of armenians towards azerbaijanians are also analized in the chapter.

The third chapter is called "Delivering to world community bloodthirsty armenian peculiarities". Here is interpreted the measures for revealing armenian vandalism. The measures for showng wild treatment of armenians towards captives and hostages during Upper Karabagh Armenian-Azerbaijan conflict are investigated in details.

In "Conclusion", the author of the dissertation generalizes the main results of the research.

Çapa imzalanmışdır: 15.05.2013
Formatı: 60/84, 1/16
Sifariş № 61
Sayı: 100

***AMEA Naxçıvan Bölməsinin "Tusi" nəşriyyatında çap edilmişdir.***

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**НАХЧЫВАНСКОЕ ОТДЕЛЕНИЕ**

*На правах рукописи*

**ГЮЛЬШАН МАМЕD КЫЗЫ МУСТАФАЕВА**

# БОРЬБА ЗА ПОИСК И ВОЗВРАЩЕНИЕ ГРАЖДАН, ПОПАВШИХ В ПЛЕН И ЗАЛОЖНИКИ, ПРОПАВШИХ БЕЗ ВЕСТИ В ЗАХВАТНИЧЕСКОЙ ВОЙНЕ АРМЕНИИ ПРОТИВ АЗЕРБАЙДЖАНА
**(Конец 80-х годов XX века-начало XXI века)**

**Специальность: 5502.01 – Всеобщая история**

**А В Т О Р Е Ф Е Р А Т**

**Диссертация на соискание ученой степени**
**доктора философии по истории**

**НАХЧЫВАН – 2013**